# ÇƏRKƏZ NƏSİRLİ - 70

*"Çərkəz Cəlal oğlu Nəsirli 15 iyun 1949-cu ildə rayonun Keçikli kəndində ziyalı ailəsində anadan olub. 1953-cü ildə valideynləri ilə birlikdə rayon mərkəzinə köçmüş, 1955-ci ildə orta məktəbin birinci sinifinə, 1961-ci ildə isə yeni açılmış Zəngilan rayon uşaq musiqi məktəbinin tar ixtisası üzrə birinci sinifinə daxil olmuş, musiqiyə olan həvəsi və istedadı onu sonralar Ü.Hacıbəyov adına Ağdam orta ixtisas musiqi məktəbinə gətirib çıxartmışdı.*

*O, hələ texnikumda oxuduğu dövrdə pedoqoji fəaliyyətə başlamışdır. Musiqi texnikumunu bitirdikdən sonra isə hərbi xidmətə yollanmışdır. Hərbi xidmətini SSRİ Silahlı Qüvvələrinin Estoniya SSR-in Purmani qəsəbəsində yerləşən hərbi hissəsində keçmişdir.*

*Hərbi xidmətdən qayıtdıqdan sonra yenidən doğma məktəbi olan Zəngilan rayon Uşaq musiqi məktəbində müəllim olaraq fəaliyyətini davam etdirir və bir neçə aydan sonra direktor təyin olunur.*

*Çərkəz Nəsirli işlədiyi dövrdə məktəbdə müəyyən islahatlar aparmış, musiqinin şan-şöhrətini elə bir yüksəkliyə qaldırmışdır ki, onun arxasınca kiçik musiqi ordusu səf-səf düzülmüşdür. Təsəvvür edin, bircə nəfər də olsun yerli ixtisaslı kadrı olmayan musiqi məktəbi müəyyən müddətdən sonra altmış beş nəfərdən çox yerli kadr hazırlayır. Əvvəllər başqa rayonlardan Zəngilana işləməyə gəlirdilərsə, sonra zəngilanlı kadrlar başqa rayonlarda işləməyə yollanmalı olublar.*

*Zəngilan rayon Uşaq Musiqi Məktəbində direktor vəzifəsində işləyə-işləyə qiyabi olaraq təhsilini davam etdirmiş, Azərbaycan Dövlət İncəsənət İnstitutunda təhsil almış və 1985-ci ildə həmin ali təhsil ocağını bitirmişdir.*

*O, həm də ictimaiyyət arasında fəallardan biri olub. Mətbuatla müntəzəm əlaqə saxlayıb, vaxtaşırı çıxışlar edib. Hələ hərbi xidmətdə olarkən "Hərbi poleqonçu" əsgər qəzetində məqalələri dərc olunub. Zəngilanda işlədiyi dövrlərdə rayon qəzeti olan "Kənd həyatı"nın səhifələrində rayonun mədəni həyatının yenilikləri barədə məqalələrlə çıxışlar edirdi. Məcburi köçkünlükdən sonra da yaradıcılıq fəaliyyətini davam etdirən Çərkəz Nəsirli Həsən bəy Zərdabi adına Fəxri diplom və medalla, bir sıra media diplomları ilə təltif olunub. "Qızıl qələm" media mükafatı laureatıdır.*

*Rayonun müsiqi həyatını özündə əks etdirən "Musiqi ilə döyünən ürəklər" (Bakı - 2011), "Zəngilanda Musiqi Ocağı" (Bakı - 2013) publisistik, "Köç gedəndən sonra" (Bakı - 2015) və "Gülnisə xalanın gəlini" (Bakı - 2017) bədii kitablarının müəllifidir.*

*Çərkəz Nəsirli məktəb direktoru işləməklə yanaşı "Qanunun tələbi" qəzeti və "Qoşa ulduz" jurnalı ilə əməkdaşlıq etmişdir. Hazırda "Gənc musiqiçi" qəzetinin baş redaktoru olmaqla yaradıcılığını davam etdirir.*

*Əsərləri almanaxlara daxil olunub, haqqıda "Mədəniyyət" televiziya kanalında veriliş hazırlanıb".*

***Əli bəy Azərinin***
***"Gəlin, tanış olaq" kitabından***